**UOT 94**

**Otar Canelidze**
***tarix elmləri doktoru,***
***Qori Dövlət Universitetinin professoru (Gürcüstan)***
***Otar_janelidze@yahoo.com***
***ORCID iD: 0000-0003-0132-4341***
**https://doi.org/10.59849/2709-5096.2024.1.98**

# TBİLİSİ – AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPA EDİLDİYİ YER

**Annotasiya**

*Tbilisi Cənubi Qafqazın coğrafi mərkəzidir. Zaman keçdikcə bu köhnə şəhər həm də bölgənin inzibati, iqtisadi və mədəni mərkəzinə çevrildi. Rusiyada monarxiyanın devrilməsi və Qafqaz canişinliyinin ləğvi ilə nəticələnən 1917-ci il Fevral inqilabından sonra Tbilisin siyasi iş yükü xüsusilə artdı. Tbilisidə növbə ilə bölgənin yeni idarəetmə orqanları - Ozakom, Zaqafqaziya Komissarlığı, Zaqafqaziya Seymi təşkil edildi.*

*Tbilisi 1918-ci il aprelin 22-dən mayın 26-dək Gürcüstan, Azərbaycan və Ermənistanın daxil olduğu Zaqafqaziya Demokratik Federativ Respublikasının paytaxtı olmuşdur. 1918-ci il mayın 26-28-də üç gün ərzində Tbilisidə üç dövlət - Gürcüstan, Azərbaycan və Ermənistan respublikaları yarandı, onların hökumətləri bir müddət burada fəaliyyət göstərdilər. Bu, analoqu olmayan unikal faktdır. Azərbaycan Xalq Cümhuriyyəti bütün Şərq müsəlman aləmində ilk respublika idi və yaranmasını beynəlxalq ictimaiyyət Tbilisidən öyrəndi.*

*Tbilisinin Şota Rustaveli prospektində yerləşən Qafqazın keçmiş valisinin sarayında Həsən-Bək Ağayevin sədrliyi ilə Azərbaycanın dövlət müstəqilliyini elan edən Azərbaycan Milli Şurasının tarixi iclası keçirilib. Bu gün binanın üzərinə xatirə lövhəsi vurulub. 1918-ci il iyunun 16-da Fətal Xan Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti hökuməti iyulun 30-da köhnə adı olan Gəncənin qaytarıldığı Yelizavetopol şəhərinə köçdü. Gürcüstan və Azərbaycan tezliklə bir-birinin suverenliyini tanıdılar və diplomatik missiya mübadiləsi apardılar. Qonşu respublikaların siyasi münasibətlərində diplomatik etiket tam şəkildə qorunurdu. Hökumətlər və qanunverici orqanlar hər bir xalqın dövlət həyatında baş verən mühüm hadisələrlə bağlı bir-birinə təbrik ünvanlamaları, təbrik teleqramları və s.yollayırdılar. Yeni yaranmış iki dövlət arasında mübahisəli məsələlər (ərazi bölgüsü, sərhədlər) olsa da, onlar bir-biri ilə müxtəlif sahələrdə (ticarət, iqtisadiyyat, müdafiə) səmərəli əməkdaşlıq edirdilər.*

***Açar sözlər:*** *Gürcüstan, Tbilisi, Azərbaycan Demokratik Respublikası, Gəncə, Bakı, Sovet Rusiyası*

**Otar Janelidze**

## TBILISI – THE PLACE OF RESTORATION OF THE STATE INDEPENDECE OF AZERBAIJAN

**Annotation**

*Tbilisi is the geographical core of the South Caucasus. Over time, this old city also became the administrative, economic and cultural center of the region. The political workload of Tbilisi especially increased after the February Revolution of 1917, which led to the overthrow of the monarchy in Russia and the abolition of the Institute of Caucasian governorship. In Tbilisi, new governing bodies of the region were formed in turn - Ozakom, the Transcaucasian Commissariat, and the Transcaucasian Seim.*

*Tbilisi was the capital of the Transcaucasian Democratic Federative Republic from April 22 to May 26, 1918, which included Georgia, Azerbaijan and Armenia. On May 26-28, 1918, for three days, there were born three states in Tbilisi - the Republics of Georgia, Azerbaijan, and Armenia, whose governments acted here for some time. This is a unique fact which has no analogs. The Azerbaijan Democratic Republic was the first republic in the entire Eastern Muslim world, the birth of which the international community learned from Tbilisi.*

*The historic meeting of the National Council of Azerbaijan, which proclaimed the state independence of Azerbaijan, chaired by Hasan-Bek Agayev, was held at the Palace of the former Viceroy of the Caucasus on Shota Rustaveli Avenue in Tbilisi. Today, a memorial plaque has been installed on the building. On June 16, 1918, the government of the Azerbaijan Democratic Republic, headed by Fatal Khan-Khoisky, moved to the city of Elizavetopol, to which its old name – Ganja, was returned on July 30.*

*Georgia and Azerbaijan soon recognized each other's sovereignty and exchanged diplomatic missions. Diplomatic etiquette was fully preserved in the political relations of neighboring republics. Governments and legislative bodies sent greeting addresses to each other, congratulatory telegrams on important events in the state life of each people, and so on. Although there were controversial issues between the two newly formed states (territorial division, borders), they fruitfully cooperated with each other in various areas (trade, economy, defense).*

***Keywords:*** *Georgia, Tbilisi, Democratic Republic of Azerbaijan, Ganja, Baku, Soviet Russia*

**Отар Жанелидзе**

## ТБИЛИСИ – МЕСТО ВОССТАНОВЛЕНИЯ ГОСУДАРСТВЕННОЙ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА

**Аннотация**

*Тбилиси является географической сердцевиной Южного Кавказа. Со временем этот старый город также стал административным, экономическим*

*и культурным центром региона.Политическая нагрузка Тбилисио собенно возросла после Февральской революции 1917 года, приведшей к свержению монархии в России и упразднению Кавказского наместничество. В Тбилиси поочередно формировались новые органы управления краем – Озаком, Закавказский комиссариат и Закавказский сейм.*

*Тбилиси был столицей Закавказской Демократической Федеративной Республики с 22 апреля по 26 мая 1918 года, в которую входили Грузия, Азербайджан и Армения. 26-28 мая 1918 года в течение трех дней в Тбилиси возникли три государства – Республики Грузия, Азербайджан и Армения, правительства которых некоторое время действовали здесь. Этот факт уникален и аналогов не имеет. Азербайджанская Демократическая Республика была первой республикой во всем восточном мусульманском мире, о рождении которой международное сообщество узнало из Тбилиси. Историческое заседание Национального совета Азербайджана, провозгласившего государственную независимость Азербайджана, под председательством Гасан-Бека Агаева состоялось во Дворце бывшего наместника Кавказа на проспекте Шота Руставели в Тбилиси. Сегодня на здании установлена соответствующая мемориальная доска. 16 июня 1918 года правительство Азербайджанской Демократической Республики во главе с Фаталом Хан-Хойским переехало в город Елизаветополь, которому 30 июля было возвращено старое название – Гянджа.*

*Грузия и Азербайджан вскоре признали суверенитет друг друга и обменялись дипломатическими миссиями. Дипломатический этикет полностью сохранялся в политических отношениях соседних республик. Правительства и законодательные органы направляли друг другу приветственные адреса, поздравительные телеграммы по поводу важных событий в государственной жизни каждого народа и т.д. Хотя между двумя новообразованными государствами были и спорные вопросы (территориальное разделение, границы), они в разных сферах плодотворно сотрудничали друг с другом (торговля, экономика, оборона).*

***Ключевые слова:*** *Грузия, Тбилиси, Азербайджанская Демократическая Республика, Гянджа, Баку, Советская Россия.*

## Giriş

Gürcüstanla Azərbaycan arasındakı münasibətlər iki dövlət arasında ahəngdar mehriban qonşuluq, strateji və tərəfdaşlıq əməkdaşlığının ən yaxşı nümunəsidir. Müasir Azərbaycan icmasının qohumu olan türkdilli və müsəlman etnos Gürcüstan ərazisində və onun paytaxtı Tiflisdə qədim zamanlardan məskunlaşıb. Onların bir çox nümayəndələrinin adı Gürcüstanın tarixinə əbədi həkk olunub. Adları həm Gürcüstanın, həm də Azərbaycanın tarixini bəzəyən bir çox tanınmış azərbaycanlılar Gürcüstanda doğulub, yaşayıb və ya fəaliyyət göstəriblər. 1918-ci ilin mayında

Tiflisdə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının elan edilməsi iki xalq arasında dostluq münasibətlərinə xüsusi gözəllik verir.

Bu məqalə ilkin mənbələrə əsaslanaraq bu son maraqlı faktdan bəhs edir.

* * *

1917-ci ilin fevral inqilabı və çarizmin devrilməsi Rusiya imperiyasının bütün məkanında və o cümlədən, Cənubi Qafqazda əhəmiyyətli ictimai və siyasi dəyişikliklərə səbəb olmuşdur.

Çar canişini institutu, jandarmeriya, oxranka və köhnə hökumətin digər institusiyaları ləğv edilmişdir. Petroqradda yaradılmış müvəqqəti Rusiya hökuməti Tbilisidə öz müvəkkili və diyarın ali mülki idarəetmə orqanını – Xüsusi Zaqafqaziya Komitəsini (Ozakom) formalaşdırmışdır. Ozakomun sədri olaraq kadetlər partiyasının liderlərindən biri rus Vasili Xarlamov təyin edilmiş, üzvləri olaraq isə gürcü, erməni və azərbaycanlıların nümayəndələri, o cümlədən, Rusiyanın IV Dövlət Dumasının deputatları Akaki Çxenkeli, Mikael Papacanov və Məmməd Yusif Cəfərov seçilmişdilər. Ozakomun daha bir üzvü Kita Abaşidze tezliklə vəfat etmiş, digərləri isə 1918-ci ildən etibarən öz müstəqil dövlətlərinin əsas fiqurlarına çevrilmişlər. Məsələn, A.Çxenkeli Gürcüstan Demokratik Respublikasının, Cəfərov isə Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər nazirləri olmuşlar.

Müvəqqəti hökumətin tərkibi bir neçə dəfə dəyişmiş, 1 sentyabr 1917-ci il tarixində Rusiya respublika olaraq elan edilmiş, sosial xarakterli bir çox qanun və sair dərc edilmiş, lakin ətrafdakı millətlərin öz müqəddəratının təyin edilməsi üçün hakimiyyət heç nə etməmişdir.

1917-ci il oktyabrın 25-də Petroqradda dövlət çevrilişi həyata keçirilmişdir. Bolşevik partiyası hakimiyyəti ələ keçirmiş və Rusiyada sovet quruluşunu - proletariatın diktaturasını qurmuşdur.

Cənubi Qafqazın əsas siyasi partiyaları oktyabr çevrilişini tanımamış, onu avantüra hesab etmiş və sovet hökumətindən ayrılmışlar. Onlar qüvvəsini itirmiş Ozakom əvəzinə, 15 noyabr 1917-ci il tarixində Tbilisidə Yevgeni Qeqeçkorinin sədrliyi ilə yeni müvəqqəti regional idarəetmə orqanını - Zaqafqaziya Komissarlığını təsis etmişlər. Azərbaycanlılardan Komissarlığa Fətəli xan Xoyski (xalq təhsili komissarı), Məmməd Yusif Cəfərov (ticarət və sənaye komissarı), Xudadat bəy Məlik-Aslanov (yollar komissarı) və Xəlil bəy Xasməmmədov (nəzarət komissarı) daxil oldular.

Bolşeviklər Rusiyanın Müəssislər Məclisini qovduqdan sonra Zaqafqaziya Komissarlığı yerli nüfuzlu siyasi partiyalar ilə razılaşaraq diyarın qanunvericilik orqanını - Zaqafqaziya Seymini yaratmışdır. Seymdə Rusiyanın istefaya göndərilmiş Müəssislər Məclisinin gürcü, erməni və azərbaycanlı deputatları birləşdilər. Belə ki, Cənubi Qafqazın siyasətçiləri həmçinin Tbilisidə, 10 fevral 1918-ci il tarixində formalaşdırılmış Zaqafqaziya Seymində də və 22 aprel 1918-ci il tarixindən həmin

ilin mayın 26-na qədər mövcud olmuş Zaqafqaziya Demokratik Federativ Respublikasında da bir-biri ilə yan-yana fəaliyyət göstərməli olmuşlar. Olduqca çətin xarici vəziyyət və ya daxili qarşıdurmalar səbəbindən bu siyasi təşkilat uzun müddət dayana bilməmiş, lakin o, sivil formada dağılmış və üç yeni dövlətin - Gürcüstan, Azərbaycan və Ermənistan Respublikalarının yaranması yolunda qısa bir mərhələ olaraq qalmışdır [1, s.175-176.].

Gürcüstan-Azərbaycanın birgə yaşamasının bir maraqlı epizodu 1918-ci ilin may ayında Tbilisidə Azərbaycan Xalq Cümhuriyyətinin təsis edilməsində ifadə edilmişdir. Bütün müsəlman şərqi dünyasında bu ilk respublikanın doğulması barədə beynəlxalq cəmiyyətə Tbilisidən xəbər verilmişdir, çünki onun hakimiyyətinin yerləşdiyi yer müəyyən bir zaman ərzində bu şəhər idi.

Artıq özünü ləğv etmiş Zaqafqaziya Seyminin azərbaycanlı deputatları 27 may 1918-ci il tarixində özlərini Azərbaycanın Müvəqqəti Milli Şurası kimi elan etmiş və sədri olaraq Müsavat partiyasının lideri Məmməd Əmin Rəsulzadəni seçmişlər. Şura Azərbaycana himayəçilik etməyə hazır olduğunu bildirdi.

O dövrün dövri mətbuatının məlumatına əsasən, Müsəlman Milli Şurası bütün dövlətlərin xarici işlər nazirlərinə sirkulyar depeşasını göndərmiş və onda qeyd etmişdir ki, Gürcüstanın Zaqafqaziyadan ayrılması səbəbindən o, Azərbaycanı müstəqil demokratik respublika olaraq elan edir. Respublikaya Cənubi və Şərqi Qafqaz daxildir [2].

Azərbaycanlı siyasətçilərin bir hissəsi, o cümlədən, Fətəli xan Xoyski tərəddüd edirdi və başqalarına da məsləhət görürdü ki, regionda vəziyyət sonuna qədər aydınlaşdırılana qədər müstəqilliyi elan etməkdən çəkinsin və sülh danışıqlarını keçirmək preroqativi ilə təchiz edilmiş olacaq Azərbaycanın tamhüquqlu hökumətinin yaradılması ilə qane olsunlar [3, s.116.]. Azərbaycanın Osmanlı İmperiyası ilə birləşməsinin tərəfdarları da var idi və s. Məmməd Əmin Rəsulzadənin dediyinə görə: "Sağ tərəfdən bizə deyirdilər ki, Azərbaycanizm şüarını irəli sürməklə biz müsəlmanları parçalayırıq, Azərbaycanizm bayrağını ucaltmaqla biz islam əsaslarını pozuruq. Sol tərəfdən isə bizi ittiham edirdilər ki, Azərbaycanın muxtariyyatını tələb etməklə biz vahid demokratik cəbhənin dağılmasına dəstək oluruq" [4, s.114].

Buna baxmayaraq, 28 may 1918-ci il tarixində Milli Şuranın iclasında 24 səs ilə (iki nəfər bitərəf qaldı) Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi barədə qərar qəbul edilmişdir. Müstəqillik aktında aşağıdakılar qeyd edilmişdir: "Bu gündən etibarən Azərbaycan xalqı suveren hüquqların daşıyıcısıdır və Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycan tamdəyərli müstəqil bir dövlətdir" [5,s.428.]. Hökumətin yaradılması Fətəli xan Xoyskiyə tapşırılmışdır [6].

Müsəlman Milli Şurasının sədr müavini Həsən bəy Ağayevin rəhbərlik etdiyi Azərbaycan Milli Şurasının bu tarixi iclası Tbilisidə, Şota Rustaveli prospektində yerləşən keçmiş çar canişininin sarayında keçirilmişdir. İki gün bundan əvvəl elə

buradaca Gürcüstanın dövlət suverenliyinin yenilənməsi və demokratik respublikanın yaradılması da elan edilmişdir. Bu gün binanın üzərində müvafiq memorial lövhələr yerləşdirilib.

Gürcü siyasi spektri Azərbaycanın dövlət müstəqilliyini məmnunluqla qarşıladı və alqışladı, lakin müəyyən bir qorxu da yarandı ki, bir şəhərdə üç hökumətin fəaliyyət göstərməsi səbəbindən (həmin günlərdə Tbilisidə eləcə də Ermənistan Respublikası da formalaşmışdır) gürcü xalqının suveren hüquqları pozula bilərdi [7]. Bəzi çap nəşrləri Gürcüstan hökumətindən müvafiq tədbirlər görməsini də tələb edirdi. Lakin qeyd edilməlidir ki, gürcü mətbuatında loyal və dəstəkləyici xarakter daşıyan yazılar da çap edilirdi. Məsələn, məqalələrdən birində yazılırdı: "Əgər biz başqasının ağrılarını hiss edə bilməzsək, azadlığa layiq ola bilmərik". ...Bizim borcumuzdur ki, qonşu xalqlara təkcə demokratik deyil, eləcə də sadə insan, həqiqi qardaş əlini uzadaq və onların vəziyyətini yüngülləşdirmək üçün bütün ölçüləri götürək" [8].

16 iyun 1918-ci il tarixində Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti Fətəli xan Xoyskinin sədrliyi ilə Yelizavetpol şəhərinə köçmüşdür ki, hansının öz qədim adı - Gəncə iyulun 30-dan qaytarılmışdır [9,s.355]. Hökumət Bakıda yalnız 17 sentyabr 1918-ci il tarixində [10, s. 18, 22], o, Osmanlı ordusunun köməyi ilə bolşeviklərdən azad edildikdən sonra yerləşmişdir.

Gürcüstan və Azərbaycan bir-birinin suverenliyini de fakto tanımışlar. Gürcüstanın Azərbaycandakı rəsmi nümayəndəsi olaraq Nikoloz Kartsivadze təyin edilmişdir. Onu tamhüquqlu səfir vəzifəsində öncə Qerasime Maxaradze, sonra isə Qriqol Alşibaia əvəz etmişlər. Azərbaycanın Tbilisidəki diplomatik nümayəndəliyi öncə Məmməd Cəfərova (Cəfərov Məmməd Yusif Hacıbaba oğlu), sonra isə Faris bəy Vəkilova (Vəkilov Faris bəy İbrahim Ağa oğlu) həvalə edilmişdir. Hərbi attaşe podpolkovnik Məmməd Əliyev olmuşdur. Batumidə baş konsul olaraq Mahmud bəy Əfəndiyev təyin edilmişdir [11].

Qonşu respublikaların siyasi münasibətlərində diplomatik etiketə tam olaraq riayət edilirdi. Hökumətlər və qanunvericilik hakimiyyətinin orqanları hər bir xalqın dövlətçilik həyatının əhəmiyyətli hadisəsi ilə əlaqədar olaraq bir-birinə salamlayıcı məktubları, təbrik teleqramlarını göndərirdilər və s.

Gürcüstan ilə Azərbaycanın münasibətlərinin xarakterinə xarici amillərdən (Dünya Müharibəsi və ondan irəli gələn nəticələr) əlavə, Rusiyanın ağır kolonial irsi, xüsusilə, bir-birindən ayrılmamış və qaydaya salınmamış sərhədləri təsir göstərirdi.

Geostrateji maraqlar, təsərrüfat və iqtisadi ehtiyaclar Gürcüstan və Azərbaycan Respublikalarının bir-biri ilə yaxınlaşması və tərəfdaşlığına təkan verirdi. Bakı nefti Gürcüstan üçün əvəzolunmaz idi, Azərbaycan üçün isə Gürcüstan qərbi dünya ilə əlaqələndirən ən qısa yol idi. Hər iki ölkədə bu hallar nəzərə alınırdı. 1918-ci

ilin dekabr ayında Azərbaycan ilə Gürcüstan arasında azad - rüsumsuz tranziti təyin edən müqavilə bağlanılmış, 1920-ci ildə rəsmiləşdirilmiş razılaşma isə malların qarşılıqlı mübadilə prosedurlarının sadələşdirilməsini nəzərdə tuturdu.

Azərbaycan ilə Gürcüstanın müdafiə sahəsində əməkdaşlığı olduqca əhəmiyyətli idi ki, bu da 1919-cu ilin iyun ayında həmin dövlətlərin hərbi müqaviləsi ilə nəticələnmişdir. İmzalayan tərəflər öhdəlik götürürdülər ki, xarici təhlükə və təcavüz olacağı təqdirdə öz silahlı qüvvələri ilə birlikdə hər iki respublikanın dövlət müstəqilliyini və ya ərazi toxunulmazlığını müdafiə etməyə çıxacaqlar. Gürcüstanın parlamentində qeyd edilən müqavilə yekdilliklə ratifikasiya edilmiş, Azərbaycan parlamentində isə onun təsdiq edilməsinin əleyhinə yalnız bolşeviklər çıxış etmişlər.

İki suveren dövlətin mehriban qonşuluq və tərəfdaşlıq münasibətləri 1920-ci ilin aprelin sonunda, XI ordunun hissələri Bakını tutduqdan, Xalq Cümhuriyyətinin mövcudluğuna son qoyduqdan və Azərbaycan Sovet Sosialist Respublikasının yaradılmasını elan etdikdən sonra kəsilmişdir. Bolşeviklər tərəfindən təqib edilən Azərbaycanın devrilmiş hakimiyyətinin nümayəndələri siyasi sığınacağı bir müddət Tbilisidə tapmışlar.

**Nəticə**

Azərbaycan Xalq Cümhuriyyəti bütün Şərq müsəlman aləmində ilk respublika idi. Onun doğulması beynəlxalq ictimaiyyətə Tiflisdən çatdırılıb, çünki bu şəhər bir müddət ölkə hökumətinin oturduğu yer olub.

Gürcüstanın siyasi spektri məmnunluqla qarşılandı və Azərbaycanın dövlət müstəqilliyini alqışladı. 1918-ci il iyunun 16-da Fətəli Xan Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Tiflisdən Gəncə şəhərinə köçdü, 1918-ci il sentyabrın 17-də isə Bakıda məskunlaşdı.

Gürcüstan və Azərbaycan de-fakto bir-birinin suverenliyini tanıyıb və diplomatik nümayəndələr mübadiləsi aparıblar. İki suveren dövlət arasında mehriban qonşuluq və tərəfdaşlıq münasibətləri Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalı və sovetləşdirilməsi ilə kəsildi.

**İstifadə edilmiş ədəbiyyat**

1. Janelidze O., Essays from ys the History of Georgia (XIX-XXI Centuries), New York, 2021
2. Qəzeti „Sachalxo saqme" („Xalq işi"), 30 may 1918-ci il.
3. Балаев А., Мамед Эмин Расулзаде (1884-1955), М., 2009
4. Məmmədzadə M., Milli Azərbaycan hərəkatı, Bakı, 1992
5. Гасанов Г., На пути к первой республике, Очерки истории Азербайджана с февраля 1917 года до мая 1918 года, Баку, 2016

6. Yamraşov M., XX yardya Azyarbayanda milli-azadliq shyaryakaty, Bakı, 2009, s. 133-134. http://anl.az/el/alf7/em_XX.pdf.

7. Janelidze O., Three States in One City„Pro Georgia“, Warshav, 2017, # 27.

8. Qəzeti „Ertoba” („Birlik”), 28 may 1918-ci il.

9. История Азербайджана, Баку, 1995

10. Векилов Р., История возникновения Азербайджанской Республики, Баку, 1998.

11. Qasımlı M. Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin şəxsi heyəti. Bakı, 2002.